# AZƏRBAYCANDA FOLKLOR ƏDƏBİYYATININ NƏŞRİ

**Nailə Mehrəliyeva**
*Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*nailamehraliyeva@bsu.edu.az*

***Xülasə:*** *Məqalədə Aərbaycanda folklor ədəbiyyatının nəşrindən bəhs olunur. Burada folklor nəşrinin müasir vəziyyəti işıqlandırılmışdır.*
***Açar sözlər:*** *Azərbaycan, folklor, ədəbiyyat, dastan, nağıl, nəşr.*

İlkin orta əsrlərdə Azərbaycan folklorunun toplanması işi ilə həvəskarlar, səyyahlar, tarixçilər, daha çox isə ədiblər məşğul olmuşlar. Onlar topladıqları folklor mətnlərini fərqli prinsiplərlə yazıya köçürmüş və arxivləşdirmişlər. Şifahi xalq ədəbiyyatı əsrlər boyu xalqın kollektiv əməyinin məhsulu olan zəngin bədii sənət inciləri xəzinəsidir. Azərbaycan xalqının müxtəlif zamanlarda yaratdığı nağıllar, əfsanələr, dastanlar, tarixi və lirik nəğmələr, bayatılar, atalar sözü və lətifələr nəsildən-nəslə, əsrdən-əsrə keçərək zəmanəmizə qədər gəlib çatmışdır. Şifahi ədəbiyyat xalqın taleyidir: hər bir etnosun taleyi, onun milli yaddaşa nə dərəcədə bağlılığından asılıdır. Yaddaşına qayıda bilən xalq onu millətlər içində millət edən zirvəyə qalxa bilər. Azərbaycan şifahi xalq yaradıcılığında da xalqımızın özünəməxsus xüsusiyyətləri, milli adət-ənənələri, həyat və məişəti, xarakteri ifadə olunmuşdur.

Şifahi xalq ədəbiyyatı nəinki ideya-məfkurəvi, əxlaqi, həm də bədii-estetik tərbiyə işində də mühüm rol oynayır, insanın estetik zövqünün yüksəlməsinə böyük təsir göstərir.

Folklor örnəklərini türk etnosunun mənəvi varlıq göstərici kimi məqsədyönlü şəkildə toplayıb yazıya almağın – kitablaşdırmağın zəruriliyi böyük mütəfəkkir Mahmud Kaşqari (XI əsr) tərəfindən irəli sürülərək "Divanü-lüğət-it-türk" əsəri ilə gerçəkləşdirilmişdir. İlk dəfə bu ensiklopedik topluda türk tayfalarına, o cümlədən də oğuzlara aid atalar sözləri, folklorik deyimlər, mahnılar, rəvayətlər cəm olunaraq kitablaşdırılmışdır.

Bundan sonra yazıya alınmış folklor örnəkləri uzun bir zaman ərzində əlyazma – kitab şəklində təzahür edir. Bu mərhələdə sırf folklor kitabı statusunda "Kitabi-Dədə Qorqud" çıxış edir. Burada ilk dəfə olaraq nəhəng bir folklor mətni – epos "kitab" adı altında təqdim olunur. Bu ənənənin davamı olaraq atalar sözləri toplularından ibarət "Oğuznamə" (XVI əsr) və "Əmsalı –türkanə" (XVIII) əlyazma – kitabları da xalqın əsrlər boyu yaratdığı şifahi söz sərvətinin folklor kitabı şəklində qorunub saxlanılması məqsədinin ifadəsi kimi ortaya çıxmışdır.

"Oğuznamə", "Əmsali-türkanə" kimi dəyərli toplular Azərbaycan atalar sözlərinin nadir nümunələrini özündə yaşadan mötəbər mənbələrdəndir.

"Oğuznamə" XV-XVI əsrlərdə üzü köçürülən əlyazmadır. Təxminən 2000 atalarsözü və məsəldən ibarətdir. Əlyazma Sankt-Peterburq Dövlət Universitetinin Şərq fakültəsinin kitabxanasında mühafizə olunur. Əsər ilk dəfə 1987-ci ildə nəşr olunmuşdur, tərtibçisi S.Əlizadədir.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstutunda saxlanılan materiallar əsasında tərtib edilmiş "Bayatılar" kitabında orta əsrlərdə yazıya alınmış cünglərdə və şəxsi arxiv əlyazmalarında folklorun toplanma, yazıya köçürülmə tarixi və xüsusiyyətləri haqqında aydın təsəvvür yaranır. Tərtibçi A.Məmmədova əlyazmaların içərisindən yalnız bayatıları seçmiş, mətnlər üzərində mükəmməl tərtib işi aparmışdır. Kitab 1549-cu ildə yazıya alınmış bayatı ilə başlayır.

Azərbaycan folklorşünaslığı tarixində müstəqil janr kimi ilk orijinal "Atalar sözü" kitabı 1899-cu ildə nəşr olunmuşdur. Kitabın toplayıcı və tərtibçisi M.Qəmərlidir. Kitab Azərbaycan folklorşünaslığı tarixində həm də ilk olması ilə seçilir. Kitabda 750 atalar sözü, müəllif tərəfindən yazılmış "Önsöz" və sonda elmin faydası haqqında "Mənzumə" verilmişdir.

XIX əsrdən etibarən folklor ədəbiyyatının toplanması və nəşr olunması sahəsində müəyyən işlər görülmüşdür. Maarifçi ziyalılar CMOMRK məcmuəsi, "Əkinçi", "Ziya", "Kəşkül", "Kafkaz" və başqa mətbu orqanlarda folklor kitabının yeni mərhələsi üçün hazırlıq işini həyata keçirirlər.

Əsrin sonunda Məmmədvəli Ömərlinin hazırladığı "Atalar sözü" (1899) kitabı yeni mərhələnin ilk müjdəçisi olur. Bu toplunun ortaya çıxması ilə Azərbaycan folklor kitabının əlyazma – kitab mərhələsi çap kitabı mərhələsi ilə əvəzlənir. Az sonra müxtəlif ziyalılar tərəfindən hazırlanmış "Məlik Məmməd", "Balalara hədiyyə", "Arvad ağısı", "Aşıq Qərib" və s. kitablar da ilkin folklor nəşrləri kimi daha əhəmiyyətli yer tutur.

Folklorşünas V.Vəliyev yazır: "XIX əsrin sonu, XX əsrin ilk illərindən başlayaraq Azərbaycan folklorunun ayrı-ayrı janrları kitabça halında nəşr olunmağa başlayır. Çox hallarda bu kitablarda xalq ədəbiyyatının bir çox janrlarından nümunələr verilir. Onlardan "Atalarsözü", "Gözəlləmə", 26 "Nəğmə və şikəstə", "Bayatı, haxışta, layla, "Milli nəğmələr", "Nağıllar məcmuəsi", "Şagirdlərə bəxşiş (nağıllar məcmuəsi)" və başqa kitabları göstərmək olar"

XX əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması Azərbaycan folklorunun çap olunmasına yeni bir meydan açdı. Nəşri müəyyən fasilələrlə 25 il davam etmiş jurnalın, demək olar ki, hər nömrəsində tapmacalar, bayatılar, sayaçı sözlər, lətifələr və s. kiçik janrlara aid nümunələr verilirdi.

Bu dövrdə "Maarif və mədəniyyət", "Maarif işçisi", "Dan ulduzu", "Azərbaycanı öyrənmə yolu" jurnalları xalq ədəbiyyatı nümunələrinnən çox çap olunduğu mətbuat orqanları idi.

1920-1930-cu illərdə işıq üzü görmüş "Tapmacalar" (V.Xuluflu), "Azərbaycan tapmacaları" (H.Zeynallı), "El ədəbiyyatı" (V.Xuluflu), "Azərbaycan bayatıları" (H.Əlizadə), "Aşıq Ələsgər" (H.Əlizadə) və başqa nəşr işləri folklor kitabı sahəsindəki iri miqyaslı fəaliyyətin uğurlu nəticələri idi. Azərbaycanda tapmacaların toplanıb tərtib edilməsi sahəsində ən böyük iş V.Xuluflunun adı ilə bağlıdır. O, 1928-ci ildə "Tapmacalar" kitabını nəşr etdirmiş, kitaba mükəmməl "Müqəddimə" yazmış, izahlar, qeydlər vermişdir. Kitabda 726 tapmaca verilmiş, mətnlər əlifbasıra ilə düzülmüşdür. Tapmacaların hər birindən sonra onların toplandığı yer göstərilmiş, ümumi sıraya daxil olmaq şərti ilə variantları da yanında verilmişdir.



20-ci illərin folklorşünaslarından olan Salman Mümtaz əsasən lirik növün janrlarının, xüsusən Azərbaycan bayatılarının toplanması, nəşri və araşdırılması ilə məşğul olmuşdur. O, uzun illər Aşıq Abdulla adlı sənətkarın əsərlərini toplamış və nəşr etdirmişdir. S.Mümtaz tərtib etdiyi kitabın ilk nəşri "Aşıq Abdulla" adlandırsa da, ikinci nəşrdə ona "Sarı Aşıq" adını vermişdir.

"Ədəbiyyat və incəsənət" qəzetinin 7 sentyabr 1924-cü il tarixli nömrəsində R.Babaxanov dərc etdirdiyi "Koroğlu" dastanı və koroğlunun məskəni" adlı məqaləsində yazır: "Azərbaycanda bir sıra qalalar vardır ki, onlara xalq Koroğlu qalası deyir."

1940-cı illərin axırlarından etibarən folklor kitabının hazırlanması istiqamətində elmi-təşkilati fəaliyyət yenidən dirçəlməyə başlayır. "Koroğlu" eposunun yeni və sistemli nəşri seriyasının görkəmli folklorşünas M.H.Təhmasib tərəfindən təməli (1949) qoyulur və hər növbəti nəşrdə (1956, 1969, 1979 və s.) uyğun elmi təkmilləşdirmə işi aparılır.

XX əsrin 40-cı illərində 3 cilddə çap olunan "Azərbaycan nağılları" nın tərtibçisi və ön sözün müəllifi M.Təhmasib olmuşdur. 1941-ci ildə nəşr olunan I cildə 18 nağıl daxil edilmişdir. 2-ci və 3-cü cildləri isə Ə.Axundovla birgə nəşrə hazırlanmışdır.

M.Təhmasib Azərbaycanda lətifə janrının ən məhsuldar toplayıcılarından olmuşdur. O, topladığı lətifələri bir neçə dəfə – 1958 və 1962-ci illərdə rus, 1965 və 1978-ci illərdə isə Azərbaycan dillərində nəşr etdirmişdir.

AMEA-nın M.Füzuli adına Əlyazmalar fondunda saxlanılan cünglərdən götürülmüş "Bayatılar" (1977) kitabı tərtib prinsipinə görə folklor mətnlərindən düzgün yanaşmaya bir nümunədir. Kitaba 2019 bayatı daxil olumuşdur.

1960-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsi xətti ilə həyata keçirilən uğurlu elmi fəaliyyət ikicildlik "Azərbaycan folkloru antologiyası" (Ə.Axundov, 1968), "Azərbaycan nağılları" (M.H.Təhmasib, Ə.Axundov, 1968), "Azərbaycan nağılları" (M.H.Təhmasib, Ə.Axundov, N.Seyidov, 1963-1966) və "Azərbaycan dastanları" (M.H.Təhmasib və Ə.Axundov, 1966-1972) kimi akademik nəşr işlərində öz əksini tapır. Folklorun müxtəlif janrlarını əhatə edən "Bayatılar" (H.Qasımov, 1956; 1960), "Molla Nəsrəddin lətifələri" (M.H.Təhmasib 1940-1970-ci illərin çoxsaylı nəşrləri), Tapmacalar (N.Seyidov, 1970), "Azərbaycan aşıqları və el şairləri" (1983-1984) ikicildlikləri də folklor kitabı sahəsindəki irimiqyaslı fəaliyyətin əyani göstəricisidir.

"Azərnəşr" də 1967-ci ildə 20 min trajla 2 cilddə buraxılan "Azəri nağılları" görkəmli folklorşünas Əhliman Axundov tərəfindən tərtib olunmuş, buraya "Kürd Hüseynin nağılı", "Şahzadə və Mələykə xatun", "Şah Abbas və üç bacı", "İlyasın nağılı" və digər iyirmi dörd nağıl daxil edilmişdir.

1970-1980-ci illərdə "Azərbaycan folklor kitabı" nın hazırlanması işində V.Vəliyev, İ.Abbaslı, P.Əfəndiyev, A.Nəbiyev, B.Abdulla, S.Paşayev, M.Həkimov, Ə.Cəfərzadə, R.Rüstəmzadə və başqa folklorşünaslar da yaxından iştirak etmişdir.

"Gənclik" nəşriyyatı 1973-cü ildə "Ustad aşıqlar" seiyasından "Bozalqanlı aşıq Hüseyn" kitabını 25 min tjrajla çapdan buraxmışdır. XX əsrdə qoşma, gəraylı, təcnisləri ilə məhşur olan Aşıq Bozalqanlının bu məcmuəsinə onun gözəl şeir nümunələri daxil edilmiş və tərtibçisi tərəfindən dolğun müqəddimə yazılmışdır.

Nəşriyyat "Yaşayan əfsanələr" kitabını da 20 min trajla S.Paşanın tərtibi ilə çapdan buraxmışdır. Bu kitabda Azərbaycan əfsanələri ilk dəfə toplanıb işlənmişdir. Əfsanələrin böyük əksəriyyəti məhəbbətlə, bir qismi isə çox qədim adət və ənələrlə bağlı idi. Kitabda əfsanələr mövzuya görə qruplaşdırılmışdı.

Müstəqillik illərində Azərbaycan folkloruna münasibət əvvəlki dövrlərdən xeyli fərqləndi. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Folklor Elmi Mərkəzinin, sonradan mərkəzin elmi bazası əsasında AMEA Folklor İnstitutunun – Azərbaycan folklorunun hərtərəfli öyrənilməsi, folklorşünaslığın inkişaf etdirilməsi ilə bağlı rəsmi qurumun yaradılması bu sahədə köklü dəyişikliklərə səbəb oldu. AMEA Folklor İnstitutunun folklorun toplanması, nəşri və tədqiqi ilə bağlı gördüyü işlər xalq ədəbiyyatının inkişafında yeni bir mərhələ açdı. Beləki Folklor İnstitutunun layihələri ilə toplanan nümunələr əsasında ərsəyə gələn "Azərbaycan folkloru antologiyası", "Azərbaycan folkloru külliyyatı" və "Qarabağ: folklor da bir tarixdir", müxtəlif regionlara məxsus "Folklor örnəkləri" çoxcildlikləri, eləcə də "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından olan kitabların çapı folklorşünaslığının inkişafında əhəmiyyətli rol oynayır.

1994-cü ildə çapdan buraxılan "Azərbaycan folkloru antologiyası" çoxcildliyi (indiyə qədər iyirmiyə yaxın cildi işıq üzü görmüşdür) müstəqillik dönəminin fundamental folklor kitabıdır.

Folklor institutunun bu sahədə gördüyü işlər böyük ümidlər doğurur. Onlarla, yüzlərlə xalq yaradıcılığı örnəkləri yazıya alınıb, itib-batmaq təhlükəsindən qorunur.

Folklor institutu tərəfindən xalq ədəbiyyatının müxtəlif növlərini özündə birləşdirən çoxcildli "Azərbaycan folklor külliyyatı" hazırlanmışdır.

Azərbaycan Folklor İnstitutunun folklor ədəbiyyatının toplanması sahəsində gördüyü ən mühüm işlərdən biri də "Azərbaycan folkloru antologiyası" nın nəşr edilməsidir. Bu, regional-məhəlli folklor antologiyasıdır. Artıq çoxsaylı cildləri çapdan çıxmışdır. Burada Azərbaycanın Göyçə, Şirvan, Naxçıvan, Şəki, Qaraqoyunlu, Gəncəbasar və s. bölgələrinin folkloru həmin folklor mühitləri üçün xarakterik olan bütün janrlar səviyyəsində təqdim olunur.

"Azərbaycan folkloru antologiyası" nın I kitab Göyçə folklorudur. Bu kitabda Azərbaycanın, eləcə də bütün Türk dünyasının ən möhtəşəm söz - sənət məbədgahlarından olan qədim Göyçə mahalının zəngin və təkrarsız folklor inciləri toplanmışdır.



Azərbaycan Folklor İnstitutunun hazırladığı mühüm nəşrlərdən biri də "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" seriyasında nəşr olunan kitablardır.

Azərbaycan Respubikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə əlaqədar olaraq folklor ədəbiyyatının müxtəlif janrları kütləvi tirajla nəşr olunmuşdur. Bu sahədə bir sıra nəşriyyatlar xüsusi fəallıq göstərmişdir.

"Öndər" nəşriyyatı 2004-cü ildə "Atalar sözü" adlı kitabini çapdan buraxmışdır. Bu kitab "Atalar sözü" nün ən müxtəlif nəşrləri əsasında yenidən tərtib edilərək təkrar nəşrə hazırlanmışdır. Kitabın tərtibçisi və "Ön söz" ün müəllifi fil.e.n. Cəlal Bəydili (Məmmədov) elmi redaktor: fil.e.d., prof. İsrafil Abbaslıdır.

Azərbaycan folkloru qədimlikdə, tarixdən xəbər verməklə yanaşı Azərbaycan xalqının ruhundan süzülən mədəniyyətdir. Azərbaycan folkloru öz kökləri tarixi etibarı ilə ümumtürk folklorunun mühüm tərkib hissəsidir. Xalqın tarixi ilə sıx bağlı olan folklor onun öyrənilməsi üçün də ən etibarlı mənbədir. Folklor nümunələri xalq zəkasının qüdrətini, bədii təfəkkürünün gücünü əks etdirən, məzmun cəhətdən maraqlı, ideya baxımından zəngin, əsrlərin sınağından çıxmış əsərlərdir.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**


1. Atalar sözü. – Bakı: Öndər nəşriyyatı, 2004. – 264 s.
2. Azərbaycan bayatıları. – Bakı: XXI – Yeni Nəşrlər Evi, 2004. – 304 s.
3. Azərbaycan dastanları. Beş cilddə. – Birinci cild. – Bakı: Lider, 2005. – 392 s.
4. Azərbaycan folkloru. – Bakı: Şərq-Qərb, 2005. – 360 s.
5. Əliyeva – Kəngərli A. Azərbaycan folkloru və kitab mədəniyyəti. – Bakı: Elm, 2008. – 423 s.
6. Kərimova X. Folklor mətnlərinin tərtibi məsələləri. – Bakı: Elm və təhsil, 2019. – 192 s.


**Н.Мехралиева**

**Издание фольклорной литературы в Азербайджане**

***Резюме:*** *В статье говорится об издании азербайджанской Фольклорной литературы. Здесь освещается современная ситуация издания фольклорной литературы.*

***Ключевые слова:*** *фольклор, литература, эпос, сказка, проза*

**N.Mehraliyev**

**Publication of folklore literature in Azerbaijan**

***Summary:*** *This article recounts the publication of folklore litrature in Azerbaijan. There modern stiation and state of folklore publication has been spotlit.*

***Key words:*** *Azerbaijan, folklore, litrature, epic tale, publication*

***Rəyçi:*** *p.ü.f.dok., dos.* ***K.Aslan***